# “Jewish News Syndicate” agentliyi Qələbədən sonra azərbaycanlıların Qarabağa qayıdışından bəhs edən məqalə yayıb

“Jewish News Syndicate” agentliyi Vətən müharibəsindəki tarixi Zəfərdən sonra azərbaycanlıların doğma yurdlarına qayıdışından bəhs edən məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Ermənistanla altı həftəlik müharibədə qazandığı Qələbədən sonra azərbaycanlıların Qarabağa qayıtmaq imkanının yarandığı qeyd edilir. Yazıda, həmçinin yəhudilərin əsrlərdir Azərbaycanda yaşadıqları, İsrail və Azərbaycan arasında əlaqələrin onilliklər ərzində inkişaf etdiyi bildirilir.

Məqalənin müəllifi olan “Cultural Diplomacy Associates” təşkilatının rəhbəri, “Qarabağ Fondu”nun keçmiş icraçı direktoru Diana Koen Altman on illər idi davam edən Dağlıq Qarabağ münaqişəsi və azərbaycanlıların işğaldan azad olunmuş ərazilərə qayıtmaları ilə bağlı yəhudi baxışını diqqətə çatdırır. Qeyd edir ki, 30 il müddətində Qarabağda ermənilərin məskunlaşdırılması və azərbaycanlıların olmaması orada Azərbaycan mədəniyyəti və həyat mənzərəsini, sözün əsl mənasında, dəyişdirib. Ötən illər ərzində BMT-nin bir neçə qətnaməsi Qarabağı Azərbaycanın tərkib hissəsi kimi təsdiqləməsinə baxmayaraq, azərbaycanlılar Qarabağdakı irslərinin və evlərinin faciəvi şəkildə dağıdılmasına beynəlxalq miqyasda biganəliyin olduğunu gördülər.

Azərbaycandakı yəhudilər həmyerlilərinin Qarabağın ölkənin döyünən ürəyinin ayrılmaz tərkib hissəsi olması hisslərini bölüşürlər. Yəhudilərin yaşadıqları Qırmızı Qəsəbədən olan əsgər Daniel Zarbaliv 30 il idi işğal altında olan torpaqların azad edilməsi ilə qürur duyduğunu bildirir. Onun fikirləri 1992-ci ilin mayında Qarabağ uğrunda döyüşərkən əsgər yoldaşlarını xilas etməyə çalışan və həlak olan Azərbaycan yəhudisi Albert Aqarunovun fikirlərini təkrarlayır. Albert Aqarunov ölümündən sonra ən ali mükafata - Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Ölümündən əvvəl o demişdi: **“Bura mənim vətənimdir. Mənim başqa vətənim yoxdur. Vətənimi qorumağım mənim üçün təbiidir”.**




Müəllif yazır ki, həqiqətən, dünya azərbaycanlıları, nəhayət, evlərinə geri qayıtdıqlarını gördüklərinə sevinirlər. Azərbaycanlılar Qarabağı Azərbaycanın zəngin, inkişaf etmiş irsinin mərkəzi hesab edirlər. 1988-ci ildən başlayaraq Qarabağın itirilməsi onlar üçün şok təsiri bağışladı. Qarabağdan Azərbaycanın paytaxtı Bakıya getmək məcburiyyətində qalan 600 mindən çox məcburi köçkün üçün vətənə qayıtmaq öz ailələrinə və uşaqlıq illərinə qayıtmaq deməkdir. Orada onların sevincli və kədərli xatirələri var. Kədərli ona görə ki, məcburi köçkünlərin çoxunun ailə üzləri Qarabağda dəhşətli şəkildə qətlə yetirilib.

Evə qayıtmaq həm də əksər azərbaycanlılara “Qafqazın konservatoriyası” kimi tanınan Şuşanın sənətkarlarının, musiqiçilərinin, şairlərinin yaradıcılığını, onların şərəfinə yaradılmış muzeyləri xatırladır. Ancaq Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinə görə, Qarabağda iyirmidən çox muzey, yüz mindən çox muzey eksponatı və digər infrastruktur obyektləri, tarixi, dini, mədəni abidələr məhv edilib. Mədəni irsin dağıdılması müharibənin dəhşətli nəticəsidir. UNESCO, Metropoliten muzeyi, Smitsonian İnstitutu və digərləri Qarabağdakı eksponatlara hörmətlə yanaşılması üçün müraciətlər etsələr də, Azərbaycanın müvafiq qurumları bu müraciətlərin çox gec edildiyini bildiriblər.

Məqalədə Xurşidbanu Natəvan, onun yaradıcılığı, xeyriyyəçilik fəaliyyəti haqqında da məlumat verilir. Bildirilir ki, bu gün Bakıya gələn qonaqlar Natəvanın şəhərin mərkəzindəki heykəlini görə bilərlər. Sabah isə Qarabağda dünya Natəvanı və bu bölgənin digər qəhrəmanlarını tanımaq üçün yeni yollar tapa bilər. Şübhəsiz ki, azərbaycanlılar bu qədər əziz tutduqları irsi inkişaf etdirmək üçün yeni yolları özləri tapacaqlar.

Yeni Azərbaycan.- 2021.- 12 yanvar.- S.7.